***Azərbaycanın xalq yazıçısı, Milli Məclisin deputatı Maqsud İbrahimbəyov özünün yeni publisistik oçerkində ölkəmizə qara yaxan və əksər hallarda xaricdəki bədxahlarımız tərəfindən uydurulan ən cəfəng dedi-qoduları yaymaqla məşğul olan bəzi başabəla "jurnalistləri" və məlum yönümlü mətbuat orqanlarının dövlətimizə qarşı elan edilmiş açıq-aşkar və preventiv təbliğat müharibəsinə hazır olması barədə düşüncələrini oxucularla bölüşür. AzərTAc həmin oçerki oxuculara təqdim edir.***

# Geriyə yol yoxdur

*Maqsud İBRAHİMBƏYOV,*
*Azərbaycan xalq yazıçısı, Milli Məclisin deputatı*

Ötən həftə əvvəllər tanımadığımız Mercer Resource Human Consulting şirkəti heç kəsin gözləmədiyi halda, ölkəmizin “sarı mətbuat” jurnalistlərinə yaxşı bir hədiyyə etmişdir: şirkət dünyanın ən çirkli şəhərlərinin siyahısını dərc etmiş və bu reytinqdə Azərbaycan paytaxtını birinci yerə qoymuşdur. İlk baxışda bu cür gözlənilməz qərar qəribə və izahedilməz görünə bilər. Dünyanın ən gözəl və norma daxilində abad şəhərlərindən biri olan Bakıya hansı əsasla bu cür ədalətsiz və xoşagəlməz qiymət verilmişdir? Bəlkə dünyanın bəzi başqa şəhərlərində olduğu kimi, Bakıda da zibil basmış küçələrdə günün günorta çağında siçovullar qaçışır, açıq xəndəklərinə isə kanalizasiya sularını axıtmaq üçün istifadə edilir? Yaxud Mercer Resource Human Consulting şirkətinin əslində faktları var ki, Bakının küçə və meydanlarında mal-qara gəzir və asfaltı, yaşıllıqları, güllükləri peyinlə gübrələyir? Turistlər dünyanın bəzi şəhərlərində belə mənzərələri müşahidə edə bilərlər. Bakıda nəşr edilən “sarı qəzetlərin” bir hissəsinin reaksiyasından belə məlum olur ki, Bakının yuxarıda göstərilən reytinqinin əsasını məhz bu cür meyarlar təşkil etmişdir. Mercer Resource Human Consulting bakılı “jurnalistlərin” onun bu qərarını oxuculara izah etmək üçün nə cür əsassız və yanlış dəlillər gətirdiklərini bilsəydi, doğrudan da heyrətlənərdi.

Mercer Resource Human Consulting reytinqin nəticəsini tamamilə anlaşıqlı şəkildə, neftçıxarmanın ekoloji fəsadları ilə izah edir. Bu, həqiqətən, ağlabatandır. Bakı özlüyündə nadir şəhərdir. XIX-XX əsrlərdə bütün sivilizasiyalı dünyada neft sənayesinin mərkəzi olmuşdur. Artıq bir neçə əsrdir ki, onun ərazisində neft çıxarılır. Son iki əsrdə Bakı iki dəfə neft bumunun şahidi olmuşdur. Şəhərin Binəqədi, Qaradağ, Səbail, Sabunçu, Suraxanı və başqa rayonlarında minlərlə hektar ərazidə hələ də köhnə və hazırda da fəaliyyətdə olan neft mədənləri qalmaqdadır. Yaşı yüz əllini ötmüş bu mədənlər şəhərimizin şanlı keçmişinin abidələridir. Bakını köhnə neft mədənlərsiz təsəvvür etmək Londonu dumansız, Romanı daş karxanaları olmadan, Neapolu isə Vezuvisiz təsəvvür etmək qədər çətindir. Yeri gəlmişkən, əgər Mercer Resource Human Consulting həyat üçün ən təhlükəli şəhərlərin reytinqini tərtib etmək fikrinə düşsəydi, bu siyahıda birinci yeri fəal Vezuvi vulkanının ətəyində yerləşən Neapol tutardı. Ona görə ki, bəşəriyyət indiyə qədər gec-tez vulkanların hökmən püskürəcəyi və zəlzələlərin baş verəcəyi yeri əvvəlcədən bilsə belə, bu cür kataklizmlərin qarşısını almaqda acizdir... Lakin İtaliyada “sarı mətbuatın” ən ucqar əyalət jurnalisti də belə bir reytinqə görə hay-küy qaldırmazdı, çünki italyanlar məğrur, ləyaqətlərini gözləyən insanlardır və onların daxili problemlərini kənar adamların müzakirə etməsini xoşlamırlar.

Böyük tektonik yarığın üstündə salınmış Los-Anceles həyat üçün olduqca təhlükəli şəhər sayılır. Burada dəhşətli fəlakət labüddür, hər dəqiqə baş verə bilər. Bunu amerikalı jurnalistlər də bilirlər, lakin onlar öz həmvətənlərinin əsəblərini sarsıtmamaq üçün bu mövzudan mümkün qədər nəzakətlə yan keçir və belə bir təhlükənin mövcud olmasına bədxahcasına sevinib dişlərini ağartmırlar. Hər halda onlar, məsələn, Bakının “sarı mətbuatı” kimi demirlər ki, Böyük tektonik yarıq Hollivudun kanalizasiya sisteminin səhv qurulması və ya ölkə prezidentinin uğursuz beynəlxalq siyasəti nəticəsində peyda olmuşdur. Belə normal vəziyyət ABŞ ölkə daxilində təsir agentlərinin fəaliyyətini qətiyyətlə ləğv etməyə nail olduqdan sonra yaranmışdır. Dövlətin həyati əhəmiyyətli mənafelərinin qorunması, əslində, həqiqi demokratiyanın əsas şərtlərindən biridir. Məhz bu qətiyyət sayəsində Amerika Birləşmiş Ştatlarında hərbi və mülki çevrilişlər qorxusu, eləcə də istənilən çalarlı narıncı inqilablar təhlükəsi yoxdur. Kənardakı bədxahlar Amerika jurnalistlərinə onların ölkədə vəziyyətin sabitliyini pozmağa yönəlmiş fəaliyyətinə görə pul vermirlər. Bu jurnalistlərin istedadlıları da, fərsizləri də bilavasitə öz işləri ilə məşğul olurlar.

Əvvəlki nəsillərdən bizə miras qalmış neft mədənlərini, hər halda, yaxın iyirmi-otuz ildə ləğv etməyə başlamaq mümkün olan məsələ deyil. Ekspertlərin ilkin hesablamalarına görə, neft qatışıqlarının neytrallaşdırılması və torpağın tamam təmizlənməsi, sonradan bütün ərazinin abadlaşdırılması kimi son dərəcə mürəkkəb əməliyyatın həyata keçirilməsi üçün ən azı iyirmi il vaxt və təxminən iyirmi-iyirmi beş milyard avro vəsait lazımdır. Bakının bəzi yerlərində hələ də neft çıxarılır, özü də bu, çox qiymətli, tərkibində parafin az olan neftdir. Fəaliyyətdə olan quyuların ətrafındakı torpağa isə bu mədənlərin istismar edildiyi iki əsr ərzində bir neçə metr dərinliyə neft hopmuş və həmin ərazilər həyat əlaməti olmayan cansız düzənliyə çevrilmişdir. Əlbəttə, burada havadan da bənövşə ətri gəlmir, mədənlərin özünəməxsus kəskin havası var. Lakin öz şəhərini çox sevən bakılıların subyektiv zövqlərinə görə, bu, neftin və dənizin qoxusunun qarışmasından yaranan xoş bir havadır. Canına neft hopmuş qumun da öz dəyəri var, buna görə də bəzi xarici şirkətlər filtrasiya və təmizləmə yolu ilə qumun tərkibindəki nefti əldə etmək hüququ qazanmağa çalışırlar. Mənə belə gəlir ki, indiki iqtisadi şəraitdə dünyanın istənilən paytaxt şəhəri Mercer Resource Human Consulting şirkətinin reytinqlərinə məhəl qoymadan öz ərazisində, gözəgəlimli olmasa da, daim qızıl yumurta verən belə toyuq saxlamağa razılaşardı. Hər halda, bu, doğrudur ki, ərazisində neft mancanaqları işləyən şəhər ən gözəl, ən abad olsa belə, hələlik ekoloji cəhətdən təmiz şəhər adına iddia edə bilməz. Mədənlər şəhərin yaşayış hissəsindən kənardadır, çirklənmiş sahələrdə vaxtaşırı sanasiya tədbirləri görülür, müntəzəm əsən xəzri isə güclü ağ ciyərlər kimi bütün şəhərin və onun ətrafındakı ərazinin havasını təmizləyir. Bunu hamı bilir. Bakıda yaşayan insanlar öz şəhərini sevir və əlverişli neft bumu şəraitində sürətlə inkişaf edən şəhər təsərrüfatında az qala hər gün müşahidə olunan müsbət dəyişikliklərə münasibətlərini bildirirlər. Lakin onlar hər cür nöqsanlara və çatışmazlıqlara da biganə deyillər.

Şəhər atmosferinin, torpağın və ya dənizin çirklənməsi termini məişət çirkabını və şəhər sanitariya xidmətlərinin vəziyyətini nəzərdə tutmur. Mercer Resource Human Consulting şirkətinin reytinqi ilə bağlı halda əyani şəkildə təsdiq edildi ki, Bakının “sarı mətbuat” nümayəndələri ən adi şeyləri ya başa düşmür və yaxud da özlərini belə göstərirlər. Görün onlar yazıq və sadəlövh Mercer Resource Human Consulting şirkətinin Bakını bəzi spesifik, demək olar ki, təbii sayıla biləcək əlamətlərə görə dünyada ən çirkli şəhər adlandırmasını necə şövqlə təhrif edib cəfəngiyat dərəcəsinə çatdırırlar. Bakıda çıxan “sarı”, ürəkkeçməsindən əziyyət çəkən distrofikin sidiyi rəngində olan bir qəzet yazır: “Siz hansı şəhərdə görmüsünüz ki, mal-heyvanı birbaşa küçədə kəssinlər? Avropa standartları səviyyəsinə çatmağa can atan bir dövlətin paytaxtı olan Bakıda bu praktika hələ də davam edir”. Maraqlıdır, bu məqalənin müəllifi Bakının harasında, hansı küçəsində mal-heyvan kəsilməsinin şahidi olmuşdur? Ey bakılılar, görün tamamilə həyasızlaşmış bu banderloq sevimli şəhərimiz haqqında sonra nə yazır: “Kanalizasiya sularının küçələri basması, əslində, hər yerdə adi hala çevrilmişdir. Çirkab günlərlə, həftələrlə qalır və bu, heç kəsi narahat etmir, heç kəs - nə mənzil-istismar orqanları, nə icra hakimiyyətinin işçiləri, nə də sakinlərin özləri kanalizasiya idarəsinin işçilərini çağırmağa tələsmir”. Reytinq nəticələrinin sifarişçiyə lazım olan istiqamətdə geniş ictimaiyyət üçün şərh edilməsi “sarı mətbuat jurnalistləri”nin üzərinə qoyulmuş mühüm vəzifələrdən biridir. İndiki sözügedən müəllif həmin vəzifənin öhdəsindən artıqlaması ilə gəlmişdir. Yaxud da o yazır: “Görün, Bakıda yaşıllıqları necə inadla məhv edirlər! Dünyada bunun analoqunu tapmaq mümkün deyil”. Bu reytinq məsələsi ilə əlaqədar sevincək olmuş müəlliflərdən biri isə qəzetdə yazdığı məqaləyə “Bakı şəhərdir, lakin heç də Avropa şəhəri yox” başlığı vermişdir. Məqalə əsas kontekstlə tam həmahəng başa çatır: “Beləliklə, Bakının təmiz, yoxsa çirkli şəhər olmasını müəyyən etmək üçün bizə heç bir xarici şirkətin rəyi lazım deyil. Biz çirkli Bakını hər gün görürük. Lakin bu məsələlər şəhərin və respublikanın hakimiyyət orqanlarını əsla narahat etmir. Buna görə də bizim nə vaxtsa mədəni Avropada yaşayıb-yaşamayacağımız məlum deyil, amma bir şey artıq bəllidir ki, biz dünyanın ən çirkli, Dəkkə (Banqladeş), Antananarivu (Madaqaskar), Port-o-Prens (Haiti), Mexiko-siti (Meksika), Əddis-Əbəbə (Efiopiya) və bizim bu qədər can atdığımız Avropada yerləşməyən başqa şəhərlərlə bir sırada duran şəhərdə yaşayırıq”.

“Sarı” jurnalistikanın cəbbəxanasında Afrika ölkələri və Afrika şəhərləri ilə müqayisə sınaqdan çıxarılmış üsuldur və o, siyasi coğrafiyanın incəliklərindən xəbərsiz olan, mətbu sözə inamı ürəyində hələ də qoruyub saxlayan oxucular üçün nəzərdə tutulmuşdur. Bakıda çıxan “sarı” qəzetlərdən biri bununla əlaqədar görün nə yazmışdır:

“Xarici təşkilatların verdiyi məlumatlara görə, Azərbaycanda adambaşına ümumi daxili məhsulun həcmi Konqoda və Qvineyada olduğu qədərdir”.

Həmin məqalənin müəllifindən fərqli olaraq, mən dəfələrlə bu ölkələrdə olmuşam. Adambaşına ümumi daxili məhsulun həcminə görə istər Konqo, istərsə də Qvineya Azərbaycana heç yaxın da gəlmir. Qətiyyən. Bu ölkələrdən birinin əhalisinin əksəriyyəti elektrik işığı, qazı və suyu olmayan, saman örtüklü evlərdə yaşayır və obrazlı şəkildə desək, tankdan başqa bütün sürünənlərlə, təyyarədən başqa bütün uçanlarla qidalanır. Aclıq dəhşətli şeydir, ölməmək üçün insanlar kərtənkələ, ilan, yarasa və çəyirtkə yeyirlər. Heç bir dava-dərman olmadığından, əhalinin qırx-qırx beş faizi QİÇS xəstəliyindən tədricən qırılır. Özü də insanların dilənçi vəziyyətində yaşamasından, savadsızlıqdan irəli gələn antisanitariya şəraitində. Həmin ölkələrdən ikincisində də vəziyyət eynidir. Başqa sözlə, bizim gözəl ölkəmizi Konqo və Qvineya ilə müqayisə etmək o vaxt gülməli görünərdi ki, bunun yumor hissindən və vicdan deyilən keyfiyyətdən tamamilə məhrum, mənəviyyatsız bir insanın bilərəkdən uydurduğu yalan olması bizə məlum olmayaydı. Müəllif iddia edir ki, Azərbaycanda və həmin Afrika ölkələrində ÜDM-in həcmi barədə informasiya xarici təşkilatlardan gələn məlumatdır. Bəlkə də belədir. Lakin xarici təşkilatlar çalışırlar ki, özləri heç nə uydurmasınlar. Onlar çirkin işləri şərəfsiz yerli “kadrlara” tapşırırlar. Azərbaycandan göndərilən “etibarlı” məlumatlar isə özlərini hüquq müdafiəçisi, politoloq və jurnalist adlandıran pullu agentlər tərəfindən təqdim edilir. Ölkəmiz haqqında məlumatları ən rəzil şəkildə təhrif edən saxta arayışları onlar hazırlayırlar. Heç kəs tərəfindən yoxlanılmayan bu cür arayışlar Freedom House və Human Rights Watch kimi araqarışdıran qurumların reytinqlərini dərc edən müvafiq təşkilatlara göndərilir və tezliklə onlar utanıb-qızarmadan bütün dünyaya car çəkirlər ki, Azərbaycanda iqtisadiyyat, insan hüquqları və söz azadlığı sahəsində dəhşətli vəziyyət yaranmışdır.

Dünyada çoxlu və müxtəlif beynəlxalq qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Onların hamısı istənilən vaxt ən müxtəlif məsələlərlə əlaqədar öz reytinqlərini tərtib edib yaya bilərlər. Bu reytinqlərin siyasi yönümü isə bütünlüklə və tamamilə həmin təşkilatları maliyyələşdirən sifarişçilərin istəyindən asılıdır. Müstəqil ölkələrdə BMT, YUNESKO və ya DST kimi rəsmən tanınmış beynəlxalq təşkilatların statistik məlumatlarına münasibət bildirirlər. Qondarma beynəlxalq təşkilatların cəfəng reytinq məhsullarına fikir verməksə nalayiq iş sayılır.

Lap bu yaxınlarda, təxminən bir həftə bundan əvvəl dünyada ən iri turizm portalı olan TripAdvisor öz reytinqini dərc etmişdir. Əhalisi ən bədxah olan şəhərlərin siyahısında Paris birinci yeri tutur. Bundan əlavə, Paris ən bahalı və ən çirkli şəhərlərin siyahılarında ikinci yerdədir. Londonun bütün cazibədarlığına baxmayaraq o, Avropada ən çirkli paytaxt titulunu qazanmışdır. Avropanın ən cansıxıcı şəhərləri reytinqində axırıncı yerlərdə Brüssel, Sürix və Varşava durur. Görəsən, o şəhərlərin jurnalistləri buna necə baxırlar? Heç necə. Onlardan ötrü bütün bunlar yalnız TripAdvisor portalının fikridir, vəssalam.

Bütün normal jurnalistlər bu cür mühakimə yürüdür. Təkcə Azərbaycan jurnalistlərindən savayı. Burada bütün reytinqlərin nəticələri bir qrup əhliləşdirilmiş nökər-"jurnalistlər" tərəfindən hökmən təhlil edilir və ətraflı şərh olunur, özü də hər dəfə ölkəmizin zərərinə... Bundan məqsəd isə vətəndaşlarımızda öz şəhərlərinə qarşı ikrah hissi oyatmaq, bu gün Azərbaycanda baş verən yaxşı nə varsa, hamısını gözdən salmaqdır. Düşünülmüş proqram sıravi vətəndaşlarda çatışmazlıq kompleksini, özünün gərəksiz və hüquqsuz olması hisslərini gücləndirir.

Bu yaxınlarda seksual azlıqlar da özlərinin beynəlxalq təşkilatlarını yaradıblar. Təbii ki, bu yeni təşkilatların da, əhalinin seksual ehtiraslarından asılı olaraq, dünya ölkələrinin müntəzəm reytinqlərini tərtib etməyə ixtiyarı olacaqdır. Əgər dünya ictimaiyyəti xəbər tutsa ki, pederastiya və lesbos məhəbbətlə məşğul olanların, eyni cinsin nümayəndələri arasında nikahların sayına görə Azərbaycan bizim siyasətbaz xuliqanların fikrincə biabırçı sayılan 87-ci və ya 88-ci yeri tutur, onların necə hay-küy qoparacaqlarını təsəvvür etmək olar.

Məlumdur ki, insanların, xüsusən gənclərin qəlbinə nihilizm, təşviş, bədbinlik və çarəsizlik hissləri, eləcə də Azərbaycanda baş verən bütün müsbət hallara nifrət və inamsızlıq aşılayan məhsulların tən yarısı bizim “sarı mətbuat” üçün müntəzəm olaraq xaricdə hazırlanır. Bütün bu düşmənçilik ruhlu məqalələr Bakı qəzetlərinin səhifələrində imzasız və ya uydurma imzalar altında dərc edilir. Onların müəlliflərinin uydurma adları arxasında əslində kimlərin gizləndiyini heç kəs bilmir. Anonim mənfi informasiyanın daha bir axını isə əhaliyə Bakının bəzi internet saytları vasitəsilə çatdırılır.

Bu ilin fevral ayında Böyük Britaniyada internetdə yerli polis haqqında xoşagəlməz fikirlər söyləmiş bir yeniyetmə mühakimə olunmuşdur. Hakim həmin yeniyetmənin “təhqiramiz bəyanatlar və hədələr” dərc etmək məqsədi ilə internetdən istifadəsini qadağan etmiş, bundan əlavə, onu 80 saat ictimai işlərlə məhkum etmişdir. Heç bir hay-küy də qalxmamışdır. Amma buna oxşar hadisə bizdə baş vermiş olsaydı, peşəkar demokrat, ATƏT-in nümayəndəsi Andreas Herkel başda olmaqla bizim “hüquq müdafiəçilərinin” və “jurnalistlərin” necə şivən qaldıracaqlarını təsəvvür etmək çətin deyil. Azərbaycanda yetkinlik yaşına çatmamış şəxsləri internetdə məqalə yerləşdirməyə görə məhkəməyə vermirlər. Elə yaşlıları da. Bizdə cızmaqaraçı əmilər və xalalar ağıllarına gələni - böhtan xarakterli “kompromat”lardan tutmuş ölkənin şərəf və ləyaqətini təhqir edən uydurmalara qədər hər şeyi yazıb anonim şəkildə internetdə yerləşdirə bilərlər. Təbii ki, heç bir cəzaya məruz qalmadan. Qoy yazsınlar. Bizdə senzura yoxdur və Allaha şükür ki, onun tətbiq ediləcəyi gözlənilmir. Lakin ölkəmizin təhlükəsizliyi naminə biz müəyyən tədbirlər görməyə borcluyuq.

Oxucuların hüquqları barədə də düşünməyin vaxtı çatmışdır. Pul verib qəzet alan hər bir oxucunun ödədiyi pulun müqabilində onu maraqlandırmış məqalənin əsl müəllifinin kim olduğunu bilmək hüququ vardır. Bu məqsədlə Mətbuat Şurasında və Azərbaycan Jurnalistlər Birliyində fəaliyyətdə olan bütün jurnalistlər və ştatdankənar müxbirlər haqqında məlumat bankları yaradılmalıdır. Oxucularımız məqalə müəllifinin adını (təxəllüsünü), qəzetin adını və nömrəsini göstərməklə jurnalistin əsl adını, oxucu istədikdə, isə həmin jurnalistin qısa tərcümeyi-halını, harada doğulmasını, hansı ailədə böyüməsini və harada təhsil almasını öyrənmək imkanına malik olmalıdırlar. Bu, oxucunun qanuni hüququdur və bu informasiya ona dərhal, qanuni əsasda təqdim edilməlidir. Bütün dünyada belə edirlər. Həqiqi adını gizlətmək agentlərə, casuslara və narkodilerlərə, ən uzağı, pedofillərə yaraşar, açıq fəaliyyət göstərən şəxslərə isə əsla yaraşmaz. Əgər jurnalist “sarı surroqat” deyil, həqiqi jurnalistdirsə, bir qayda olaraq, özü çalışır ki, oxucular onun adını bilsinlər.

Təxminən iyirmi il bundan əvvəl, Dağlıq Qarabağda müharibənin başlanmasına hələ bir neçə ay qalmış Bakıda və respublikanın rayonlarında mülki geyimli, bəziləri isə hərbi formada olan adamlar peyda olmuşdu. Onlar ucdantutma bütün evlərə girir və ev sahiblərindən onlarda olan silahı, o cümlədən ov tüfənglərini təhvil vermələrini tələb edirdilər. Ev sahibləri silaha malik olmaq üçün qanuni hüquqlarını təsdiqləyən vəsiqələri və başqa müvafiq sənədləri təqdim etsələr də, gələnləri fikirlərindən döndərmək mümkün deyildi. Onlar öz hərəkətlərini belə izah edirdilər ki, qanuni olub-olmamasından asılı olmayaraq, hər bir odlu silahın müsadirə edilməsi respublika hərbi komissarının və mülki hakimiyyət orqanlarının sərəncamı ilə həyata keçirilir. Onlar insanları təhvil verilməmiş hər bir silaha görə ciddi cəza tədbirləri görüləcəyi ilə qorxudurdular. Qanunpərəst vətəndaşlar bütün silahları təhvil verdilər. Nəticədə ölkənin mülki əhalisi tamamilə tərksilah edildi. Bu hadisədən iki-üç ay sonra isə Dağlıq Qarabağda müharibə başlandı. İndiyədək məlum deyil ki, bu adamlar kim idi, silahların kütləvi şəkildə yığılması kimin sərəncamına əsasən həyata keçirilmişdi? Heç kəs bilmir: necə olmuşdu ki, müharibə başlanmazdan lap əvvəl şəhər və kəndlərin sakinləri iblisanə uzaqgörənliklə tərksilah edilmişdi? Nəyə görə o vaxt heç kəs aydınlaşdırmamışdı ki, bu sabotajı konkret olaraq kim təşkil etmişdi və nə üçün satqınların adları ictimaiyyətə hələ də məlum deyil? Nə üçün belə olur? Ona görə ki, biz təəccüb doğuracaq dərəcədə laqeyd xalqıq, daha doğrusu, biz ağlasığmaz dərəcədə laqeyd adamlarıq və düşmənlərimizin, bədxahlarımızın səyləri sayəsində üzləşdiyimiz bədbəxtliklərdən lazımi nəticələr çıxarmağı hələ də öyrənməmişik.

Oxşar vəziyyət bu gün də təkrarlanır. Lakin bu dəfə insanların əlindən alınanlar ov tüfəngindən daha qiymətli və daha mühümdür. Heç kəs inkar edə bilməz: ola bilsin ki, tezliklə silahlı Qarabağ münaqişəsinin ikinci mərhələsi başlayacaqdır. Müharibəyə dinc dövrdə hazırlaşmaq lazımdır. Əslində, belə də edilir. Dinc şəraitdə Azərbaycana qarşı qabaqlayıcı təbliğat müharibəsi aparılır və bu elan edilməmiş müharibə Bakı qəzetlərinin səhifələrində başlanmışdır.